## Dünyanın ən böyük stadionları

Müasir dövrdə bəşəriyyətin maraqlarını bir araya gətirən, bəzən milyonlarla insanın gözlərini, ürəklərini və düşüncələrini eyni məkana və eyni havaya kökləyən ünvanlardan biri də böyük tədbirlərin, xüsusilə futbol yarışlarının keçirildiyi stadionlardır. İndi dünyada öz şəhərinin və ölkəsinin markasına çevrilmiş stadionlar var: «Marakana», «Uembli», «Lujniki», «Stad de Frans» və s. Bu stadionlar yalnız idman coşqusu ilə dolu rəqabət meydanı olmayıb, həm də memarlığın, şəhərsalma mədəniyyətinin ciddi tərkib hissəsi kimi diqqəti cəlb edir. Mahiyyətcə «oyun yeri» olmaqdan daha böyük məna daşıyan hər bir stadion özündə tikildiyi epoxanın estetik zövqünü, ictimai əxlaqını, bəzən də ideologiyasını ehtiva edir. On minlərlə insanı bir araya gətirən belə nəhəng qurğuları bir-birinə bənzədən və bir-birindən fərqləndirən xüsusiyyətlər, onların tutumu, yerli landşafta, eləcə də mənsub olduğu ölkənin memarlıq və şəhərsalma ənənələrinə hansı şəkildə uyğunlaşdırılması kimi cəhətlər həmişə maraq doğurmuşdur və bu gün də maraq obyektidir.

Əziz oxucular, qəzetimizin bu buraxılışından başlayaraq dünyanın ən böyük stadionları, onların tikilmə tarixi, memarlıq xüsusiyyətləri barədə yığcam məlumatlar verməyi qərara almışıq. Ümid edirik ki, bu silsilə ürəyinizcə olacaq, yazılarımızın daha maraqlı olması üçün öz rəy və təkliflərinizi, sizə məlum olan maraqlı faktları redaksiyamızın ünvanına göndərəcəksiniz.

### «1 May stadionu»

Koreya Xalq Demokratik Respublikasının paytaxtı Pxenyan şəhərindəki «1 May stadionu» müasir dünyanın ən böyük idman arenasıdır. Gənclərin və tələbələrin XIII festivalının keçirilməsi üçün tikilmiş bu stadion 1989-cu il mayın 1-də açılmışdır. 150 min tamaşaçı tutumu olan stadionun əsas memarlıq xüsusiyyəti çevrə təşkil edən 16 tağdan ibarət olmasıdır - yüksəkdən baxanda bu qurğu maqnoliya çiçəyini xatırladır. «1 May stadionu»nda ölkənin futbol üzrə yığma komandasının oyunları keçirilir.